

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 206 (21.867)

31 oktyabr 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Oktyabrın 30-da Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı münasibətilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanında təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan, Qazaxıstan Respublikasının Baş naziri Bakıtjan Saqintayev, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov, həmçinin Tacikistan və Türkmənistan respublikalarından nümayəndə heyətləri mərasimdə iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində çıxış edib.

Sonra dövlət və hökumət başçıları Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çivlərini vurublar və yoldəyişən qurğunu işə salıblar.

Bununla da, Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə hərəkət edən ilk yük qatarı yola salınıb.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 28 oktyabr tarixli Sərəncamı ilə kənd təsərrüfatının inkişafında xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları da vardır.

**Həsənov Ramiz Tağı oğlu**

**Novruzov Vəli Zihralı oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

## Naxçıvanda tütünçülük təsərrüfatı yaradılıb





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il 10 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı" tütünçülüyün inkişafı sahəsində geniş imkanlar açıb. Naxçıvan Muxtar Respublikasında da gəlirli sahə olan tütünçülüyün inkişafı, tütün emalı sahələrinin yaradılması və xammala olan tələbatın yerli istehsal hesabına ödənilməsi diqqətdə saxlanılır. Bu il Kəngərli rayonunda "Cahan Tabak" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yeni Tütün Yetişdirmə Təsərrüfatı yaradılmışdır.

Oktyabrın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Tütün Yetişdirmə Təsərrüfatının fəaliyyəti ilə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 2,5 hektar ərazini əhatə edən Tütün Yetişdirmə Təsərrüfatında şitil yetişdirmək üçün 2304 kvadratmetr sahəsi olan 5 istixana, yeraltı su anbarı, 1350 kvadratmetr sahədə tütün qurutma yeri və 420 kvadratmetr sahəsi olan 2 anbar yaradılmış, Türkiyə mənşəli müxtəlif texnika və texnoloji avadanlıqlar alınmışdır. İlkin olaraq Kəngərli rayonunda 9 hektar sahədə sınaq məqsədilə məhsuldar "Virciniya" və "Oriental" tütün sortları əkilmiş, bu günədək 11 tondan çox quru tütün istehsal olunmuşdur. Təsərrüfatda 60 nəfər işlə təmin olunmuşdur.




Əkin zamanı yerli torpaq və iqlim şəraiti nəzərə alınaraq məhsuldar sortlardan istifadə olunur. Tütünün becərilməsi, yığımı və qurudulması müasir texnoloji qaydalara uyğun aparılır ki, bu da keyfiyyətli məhsul istehsalına imkan verir. Təsərrüfatda yetişdirilən şitillər muxtar respublikada tütünçülüklə məşğul olan torpaq mülkiyyətçilərinin tələbatını tam ödəyəcəkdir. Eyni zamanda burada tütün qəbulu da həyata keçiriləcəkdir. Dövlət tərəfindən tütün istehsalçılarına subsidiyaların verilməsi və tütün qəbulu üçün yaradılan şərait bu sahəyə marağı xeyli artırmışdır. Artıq bu ildən etibarən Kəngərli rayonunun 10 kəndinin torpaq mülkiyyətçiləri tütün əkini üçün müraciət etmişlər. Gələn il 100 hektardan artıq sahədə tütün əkilməsi nəzərdə tutulur.

Qeyd olunmuşdur ki, hazırda "Cahan Tabak" Məhdud Məsuliyyətli Cəmiyyətində bazarın tələbatına uyğun olaraq 11 növdə filtrli siqaret istehsal olunur. İstehsal olunan məhsulların 10 faizi daxili tələbatı ödəyir, 90 faizi isə 8 xarici ölkəyə ixrac olunur.

Ali Məclisin Sədri təsərrüfatın qurulmasında əməyi olanlara təşəkkür etmiş, Şərur və Kəngərli rayonlarında tütün əkini sahələrinin genişləndirilməsi, ailə və fermer təsərrüfatlarının yaradılması, tütün əkiləcək torpaqların analiz olunması və uyğun sahələrin seçilməsi, yüksək məhsuldarlığa və keyfiyyətə malik sortların əkininə üstünlük verilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Naxçıvan şəhərindəki Əziz Əliyev prospekti yenidən qurulmuşdur

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2016-cı il noyabrın 18-də "Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Buna uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 21 noyabr tarixli Sərəncamı ilə Tədbirlər Planı təsdiq olunmuşdur. Tədbirlər Planına əsasən Naxçıvan şəhərinin Əziz Əliyev prospektində yenidənqurma işləri aparılmış və yeni yerüstü piyada keçidi inşa olunmuşdur.

Oktyabrın 28-də Naxçıvan şəhərindəki Əziz Əliyev prospekti və yeni inşa olunmuş yerüstü piyada keçidi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, aparılan tikinti və yenidənqurma işləri ilə maraqlanmışdır.

Bildirilmişdir ki, Naxçıvan şəhərinin Əziz Əliyev prospektində yenidənqurma işlərinə bu ilin əvvəlindən başlanmışdır. Yenidənqurma işləri aparılarkən yerli tikinti materiallarından istifadə olunmuş, avtomobil yolunun hərəkət hissəsi genişləndirilərək 24 metrə çatdırılmış, asfalt örtük verilmişdir. Yolun hər iki kənarında piyada yolu salınmış,

Ardı 2-ci səhifədə

ümumi uzunluğu 3500 metr olan yeni divar tikilmiş, müasir işıqlandırma sistemləri qurulmuş və yaşıllaşdırma işləri görülmüşdür.

Yerüstü piyada keçidi yeni yaşayış kompleksi ilə Cahan Ticarət Mərkəzi və buradakı bazar istiqamətində sakinlərin təhlükəsiz və rahat hərəkətinə imkan verəcəkdir. Müasir memarlıq üslubunda inşa olunan və işıqlandırma sistemi qurulan piyada keçidinin ümumi uzunluğu 41, eni isə 3 metrdir. 5 sütun üzərində qurulmuş keçidin yolun hərəkət hissəsindən hündürlüyü isə 4,7 metrdir.

Ali Məclisin Sədri Naxçıvan şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi, eləcə də nəqliyyatın və piyada axınının intensiv olduğu ərazilərdə hərəkətin tənzimlənməsi ilə bağlı tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



## Muzeylər insanların dünyagörüşünün zənginləşdirilməsində mühüm rol oynayır



***Hər bir xalqa məxsus olan ən qiymətli maddi və mənəvi sərvətlərin xəzinəsi, yaddaş kitabı kimi öz missiyalarını yerinə yetirmək baxımından muzeylər mühüm əhəmiyyət kəsb edən mədəniyyət müəssisələridir. Belə qurumların fəaliyyətinin daha interaktiv qurulması cəmiyyətimiz üçün olduqca vacibdir. Çünki xalqın tarixi, elmi və mədəni abidələrinin, maddi və mənəvi dəyərlərinin qorunması, saxlanılması, təbliğ edilməsi və gələcək nəsillərə ötürülməsində muzeylər müstəsna rol oynayırlar.***

Belə mədəniyyət müəssisələrinin insanların maarifləndirilməsindəki rolunu yüksək qiymətləndirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***"Muzeylər bizim tariximizi, mədəniyyətimizi özündə qoruyub gələcəyə daşıyır. ...Lakin iş muzeylərin yaradılması ilə bitmir, onların daim zənginləşdirilməsinə, tamaşaçıların muzeylərə cəlb olunmasına da ciddi diqqət yetirilməlidir".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq, muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişi təmin olunub. Bu tədbirlərin həyata keçirilməsi muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsinə və təbliğinə şərait yaradır.

Oktyabrın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşları Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyində olublar.

Muzeydə onlara bildirilib ki, muzey görkəmli ədiblərimizin həyat və yaradıcılıqlarının öyrənilməsi, elmi cəhətdən tədqiqi və təbliği sahəsində fəaliyyət göstərir. Muzeyin ekspozisiyasında çoxəsrlik Azərbaycan ədəbiyyatı tarixi ilə yaxından tanış olmaq mümkündür. Burada saxlanılan və nümayiş etdirilən qiymətli əlyazmalar, tətbiqi və təsviri sənət nümunələri, kitablar, qəzet və jurnallar, xatirə əşyaları, Azərbaycan ədəbiyyatının yaradıcıları haqqında məlumatlar, onların əsərləri bu baxımdan etibarlı mənbədir. Muzeyə gələnlər Azərbaycan ədəbiyyatının klassik və müasir nümayəndələrinin həyat və yaradıcılığını əks etdirən guşələrlə zəngin olan ekspozisiyada naxçıvanlı şair və yazıçıların yaradıcılıqları ilə də tanış ola bilirlər.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin kollektivi Naxçıvan Dövlət Tarix Muzeyində olub.

Daxili İşlər Nazirliyinin kollektivi Heydər Əliyev Muzeyini, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollektivi "Əlincəqala" Tarix-Mədəniyyət Muzey Kompleksi və Gülüstan türbəsini, Nəqliyyat Nazirliyi və nazirliyin struktur qurumları Naxçıvan Dövlət Xalça Muzeyini, İqtisadiyyat Nazirliyinin əməkdaşları "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini, Kənd Təsərrüfatı Nazirliyinin kollektivi "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini, Dövlət Təhlükəsizliyi Xidmətinin kollektivi Bəhruz Kəngərli Muzeyini, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının kollektivi Xatirə Muzeyini ziyarət ediblər. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları Hüseyn Cavidin ev-muzeyi və Xatirə Kompleksində, Fövqəladə Hallar Nazirliyi və nazirliyin struktur qurumlarının kollektivləri Cəlil Məmmədquluzadənin ev-muzeyində, Ədliyyə Nazirliyinin əməkdaşları Naxçıvan Dövlət Rəsm Qalereyasında, Naxçıvan Muxtar Respublikası Prokurorluğu, Hərbi Prokurorluq və Naxçıvan Şəhər Prokurorluğunun əməkdaşları Nəbatat bağında olublar.

**✍ Muxtar MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2017-ci ilin oktyabr ayında bir sıra qərarlar qəbul etmişdir.

Belə ki, Nazirlər Kabinetinin 2017-ci il 6 oktyabr tarixli 94 və 95 nömrəli qərarları ilə "Stomatoloji Mərkəz" publik hüquqi şəxsinin Nizamnaməsi" təsdiq edilmiş və bu qurum publik hüquqi şəxsi "Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"na daxil edilmişdir.

Nazirlər Kabinetinin 2017-ci il 16 oktyabr tarixli 96 nömrəli qərarı ilə "Elektron xidmət növlərinin Siyahısı"nda, 97 nömrəli qərarı ilə "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"nda, 98 nömrəli qərarı ilə "Naxçıvan Muxtar Respublikasının gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nda və 100 nömrəli qərarı ilə "Naxçıvan Muxtar Respublikası Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Nizamnaməsi"ndə dəyişikliklər edilmişdir.

Nazirlər Kabinetinin 2017-ci il 19 oktyabr tarixli 102 nömrəli qərarı ilə "Darıdağ Arsenli Su Müalicəxanası" publik hüquqi şəxsinin Nizamnaməsi", 103 nömrəli qərarı ilə inzibati xəta haqqında protokolun, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın və inzibati xəta haqqında işin aidiyyəti üzrə göndərilməsi barədə qərardadın formaları təsdiq edilmişdir.

Bununla yanaşı, Nazirlər Kabinetinin 2017-ci il 21 oktyabr tarixli 104 nömrəli qərarı ilə Naxçıvan Dövlət Tarix Muzeyinə "muxtar respublika" statusu verilmiş, 106 nömrəli qərarı ilə "Naxçıvan Muxtar Respublikası ərazisində iqtisadi fəaliyyət sahələri üzrə 2018-ci il üçün əmək miqrasiyası kvotası" təsdiq edilmiş, 107 nömrəli qərarı ilə "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 8 dekabr tarixli 103 nömrəli qərarında dəyişikliklər edilmişdir. Həmçinin Nazirlər Kabinetinin 2017-ci il 26 oktyabr tarixli 109 nömrəli qərarı ilə "Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda və 110 nömrəli qərarı ilə "Elektron xidmət növlərinin Siyahısı"nda dəyişikliklər edilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Qış mövsümünə hazırlıq işləri ilə bağlı tədbirlər həyata keçirilir

***Bu il avqust ayının 26-da "Naxçıvan Muxtar Respublikasında 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr"ə dair keçirilmiş müşavirədə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə mövsümi qazanxana işçilərinin qabaqcadan təlimatlandırılması ilə bağlı hazırlıq tədbirlərinə başlanılması, ocaqçıların müvafiq kurslara cəlb olunması, bərpa müəssisələrinin, eləcə də Ahıllar Evinin təminatı üçün tədbirlərin görülməsi, hərbi hissələr üçün yun corabların toxunması işinin davam etdirilməsi ilə bağlı tapşırıqlar verilmişdir.***

Həmin tapşırıqların icrası ilə əlaqədar nazirlik tərəfindən tədbirlər planı hazırlanmış və tabeli qurumların bu sahədə fəaliyyətləri müəyyənləşdirilmişdir.

Nazirlikdən aldığımız məlumata görə, tabelikdə olan qurumların inzibati binalarına, habelə kənd xidmət mərkəzlərindəki bərbərxana, gözəllik salonu və dərzi sexlərinə baxış keçirilmiş və çatışmazlıqlar müəyyənləşdirilmişdir. Bunların aradan qaldırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə məlumat təqdim edilmişdir.

Bundan əlavə, 2017-ci il 5 sentyabr tarixdən Fövqəladə Hallar Nazirliyi ilə birgə qazanxana işçilərinin qabaqcadan təlimatlandırılması üçün maarifləndirmə tədbirlərinə başlanılmış, bu günədək 309 müəssisənin qazanxanasına baxış keçirilmişdir. Həmin müəssisələrdə 729 vahid qazanxana ştatı üzrə işləyənlərdən 623 nəfərin müvafiq peşə təhsilinə malik olduğu, 65-nin peşə təhsili olmadığı, habelə 41 vakant yer müəyyən edilmişdir. Hazırda müəssisələrdə qazanxana işçilərinin təlimatlandırılması üçün maarifləndirici tədbirlər davam etdirilir.

Müvafiq peşə təhsilinə malik olmayan, həmçinin məşğulluq xidməti orqanlarında işaxtaran kimi qeydiyyatda olan şəxslərin peşə hazırlığı məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində qazanxana işçiləri üçün təşkil edilmiş kurslara 48, Təhsil Nazirliyinin tabeliyində olan peşə tədris müəssisələrindəki kurslara isə 54 nəfər cəlb edilmişdir.

Verilmiş tapşırıqların icrasına uyğun olaraq hərbi hissələr üçün yun corab və yun şərf toxunması məqsədilə sağlamlıq imkanları məhdud 19 qadınla müqavilə bağlanmışdır. İlkin olaraq toxunmuş 1107 cüt yun corab və 214 ədəd yun şərf hərbi hissələrə təhvil verilmişdir.

Qeyd olunanlarla yanaşı, sosial-məişət xidməti göstərilən ahılların qış mövsümünə uyğun zəruri ehtiyacları müəyyənləşdirilmiş, ümumilikdə, 68 nəfər tənha ahıl mövsümi geyim və digər vasitələrlə, o cümlədən 64 metr polietilen, 112 ədəd soba borusu, 3 cüt yun corab, 11 cüt qış ayaqqabısı, 3 ədəd yun geyim və 1 ədəd yataq üçün yun örtüklə təmin olunmuşdur.

Hazırda verilmiş digər tapşırıqların icrası istiqamətində işlər davam etdirilir.

**Xəbərlər şöbəsi**

## "Ulu öndər Heydər Əliyev ideyalarının təntənəsi" mövzusunda konfrans təşkil olunub

***Şərur rayonunun Qarahəsənli kəndində Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının xətti ilə keçirilən elmi-praktik konfransı giriş sözü ilə ərazi ilk partiya təşkilatının sədri Baxşəli Zeynalov açıb. Sonra rayon təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayevin "Ulu öndər Heydər Əliyev ideyalarının təntənəsi" mövzusunda məruzəsi dinlənilib.***

Konfransda rayon təşkilatının idarə heyətinin üzvü Ünbülbanu Musayeva "Demokratik cəmiyyətin formalaşmasında ulu öndər ideyalarının rolu", rayon Təhsil Şöbəsinin müdiri Zaur Həsənov "Müasir Azərbaycan təhsili ümummilli lider Heydər Əliyev siyasətinin uğurudur", təşkilatın Gənclər Birliyinin sədri Mirkərim Seyidov "Müstəqil Azərbaycanda gənclər siyasəti prioritet vəzifədir" mövzularında məruzə ilə çıxış ediblər.

Qeyd olunub ki, respublikamızın həyatında hərtərəfli inkişafa və tərəqqiyə doğru dönüş mərhələsinin başlanğıcını qoyan 1969-cu il tarixi həm də soykökümüzə, tarixi yaddaşımıza, milli və mənəvi tərəqqiyə doğru dönüş mərhələsi oldu. Təhlillər də sübut edir ki, Azərbaycanın müstəqil dövlət quruculuğu yolu məhz həmin dövrdən başlanıb. 1969-1982-ci illərdə ümummilli liderimiz Azərbaycanın hərtərəfli yüksəlişi üçün böyük uzaqgörənliklə məqsədyönlü tədbirlər həyata keçirib.



Çıxışlarda qeyd olunub ki, dahi şəxsiyyət Heydər Əliyevin 1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanda hüquqi, demokratik dövlətin və vətəndaş cəmiyyətinin yaradılması istiqamətində elmi-nəzəri əsaslara söykənən siyasi islahatlar strategiyası həyata keçirilib. Ulu öndərin birbaşa təşəbbüsü ilə hazırlanan və 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyasında hakimiyyət bölgüsü prinsipi, demokratik, dünyəvi dövlət quruculuğunun hüquqi əsasları, insan hüquq və azadlıqlarının təmin olunması təsbit edilib.

Vurğulanıb ki, dahi şəxsiyyətin müəyyənləşdirdiyi sosial-iqtisadi siyasətin müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində əldə olunmuş nailiyyətlər və toplanmış təcrübə bu gün respublikamızın hərtərəfli inkişafı və dünya iqtisadiyyatına inteqrasiyasında mühüm rol oynayır. Bunu günü-gündən yeniləşən və tərəqqi edən muxtar respublikamızın timsalında da aydın görmək mümkündür. Muxtar respublikada bir-birinin ardınca istifadəyə verilən sosial-mədəni obyektlər, işə salınan istehsal və emal müəssisələri, sahibkarlığın inkişafına göstərilən qayğı, işsizliyin aradan qaldırılması və məşğulluğun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər əhalinin maddi rifah halının yüksəlməsinə rəvac verir.

Tədbirdə partiya sıralarına qəbul edilən bir qrup gəncə yeni üzvlük vəsiqələri təqdim olunub, partiya veteranları mükafatlandırılıblar.

**Elman MƏMMƏDOV**

# Naxçıvan Dövlət Arxivinin müasir tələblər səviyyəsində fəaliyyətinə hərtərəfli şərait yaradılıb




***Azərbaycanda arxiv quruculuğu çox çətin bir yol keçib. Uzun illər vətənimizin müxtəlif işğalçı dövlətlərin mübarizə meydanına çevrilməsi nəticəsində ölkəmizə aid olan qiymətli sənədlər ya məhv edilib, yaxud da talanıb aparılıb. Yalnız müstəqilliyimiz yenidən bərpa edildikdən sonra ölkəmizdə bu işlə ciddi şəkildə məşğul olunmağa başlanılıb. Bu məsul və şərəfli vəzifəni yerinə yetirən arxiv orqanlarından biri də Naxçıvan Dövlət Arxiv İdarəsinin tərkibində fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikası Dövlət Arxividir. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin direktoru Zülfiyyə İsmayılova başçılıq etdiyi qurumun tarixi haqqında qısa məlumat verir:***

– Ölkəmizdə arxiv işinin əsası 1920-ci il dekabr ayının 6-da Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanov tərəfindən imzalanmış “Vahid dövlət arxiv fondunun yaradılması və Xalq Maarif Komissarlığı yanında mərkəzi dövlət arxivinin təşkili haqqında” dekretlə qoyulub. Həmin dekretə müvafiq olaraq Azərbaycan ərazisində keçmişdə mövcud olmuş və dekret verilərkən fəaliyyətdə olan idarə, təşkilat və müəssisələrin arxivləri Vahid dövlət arxiv fondunun tərkibinə daxil edilməli, kargüzarlıqdan qurtarmış işlər isə mərkəzi dövlət arxivinə verilməli idi. 1921-ci ilin yanvarından Bakıda fəaliyyətə başlayan Azərbaycan SSR Mərkəzi Dövlət Arxivi Qafqazda ilk dövlət arxivi idi. Ötən əsrin otuzuncu illərində yerlərdə arxiv sənədlərinin mühafizəsi və istifadəsi məqsədilə respublikanın bir sıra şəhər və rayonlarında arxiv büroları yaradıldı ki, onlar da sonralar şəhər və rayon dövlət arxivlərinə çevrildilər.

Naxçıvan Dövlət Arxivi 1925-ci ildən fəaliyyətə başlayıb. Həmin illərdə o, Xalq Maarif Komissarlığının tərkibində olub. Hazırda isə Naxçıvan Dövlət Arxivi Naxçıvan Dövlət Arxiv İdarəsinin tərkibində fəaliyyət göstərir. İdarənin tərkibinə həm də 7 rayon arxivi daxildir.

Naxçıvan Dövlət Arxiv İdarəsi və Naxçıvan Dövlət Arxivi “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanununu, həmin qanunun icrası barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli Qərarı ilə təsdiq olunmuş normativ-hüquqi sənədləri, “Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 dekabr tarixli, “Naxçıvan Dövlət Arxiv İdarəsinin fəaliyyətinin təmin edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 28 iyul tarixli fərmanlarını, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin əmr, sərəncam və göstərişlərini rəhbər tutaraq öz işini davam etdirir.

Zülfiyyə İsmayılovanın sözlərinə görə, burada arxiv fondlarının və kino-foto sənədlərinin mühafizəsi, arxiv fondları sənədlərinin komplektləşdirilməsi və dəyərinin ekspertizası, informasiya-axtarış, dövlət arxiv fond sənədlərindən istifadə edilməsi və publikasiya, arayış xüsusiyyətli sənədlərlə iş, fond sənədlərinin elektron daşıyıcılara köçürülməsi olmaqla, 6 şöbə və arxiv sənədlərini qaydaya salan mərkəz fəaliyyət göstərir. Həmçinin şəhər arxivi də Naxçıvan Dövlət Arxivinin binasında yerləşir.

Öyrəndik ki, arxivdə saxlanılan ən qədim sənəd 1833-cü ilə aiddir. Ümumilikdə, arxivdə 745 fond mühafizə edilir ki, bunlardan da 710-u idarə və təşkilatlardan daxil olunan sənədlər, 35-i isə şəxsi fond sənədləridir. Arxivdə Sosialist Əməyi Qəhrəmanı Bahar Talıbova, pedaqoji elmlər doktoru İbrahim Mollayev, şair-dramaturq Hüseyn Razi, tarix elmləri namizədi Əli Əliyev, şair Müzəffər Nəsirli, Həsən Fətullayev, Kəmalə Ağayeva, Elman Həbib, filologiya elmləri doktoru, professor Yavuz Axundov, Xalq artistləri Əyyub Haqverdiyev və İsa Musayev kimi ziyalıların şəxsi fondları yaradılıb.

Arxivdə 74 min 91 foto, 4 min 79 kino, 2 min 53 şəxsi mənşəli, 388 min 119 kağız əsaslı sənədlər qorunub saxlanılır. Burada, həmçinin sənədlərin bərpası işi də həyata keçirilir. Bərpaçı Aynur Bağırova deyir ki, artıq 12 ildir, bu vəzifədə işləyir. Mühafizəxanada bərpaya ehtiyacı olan sənədlər seçilərək bərpa olunur.

Arxivdə oxu zalı da yaradılıb. Burada müxtəlif mövzularda kitablar var. Oxucu istədiyi ədəbiyyatdan, eləcə də lazımi arxiv materialından rahat şəkildə istifadə edə bilər. Qeyd edək ki, zalda oxunması zəruri olan kitablardan ibarət guşə də yaradılıb.

Zülfiyyə xanım deyir ki, elmi-tədqiqat işləri ilə məşğul olan, bu gün müəyyən qaynaqları əldə etmək üçün buraya müraciət edənlərin sayı az deyil. Onlara yüksək səviyyədə xidmət göstərilməsi təmin edilib. Arxiv əməkdaşları unutmurlar ki, hər bir sənəd hansısa bir insanın mövcud probleminin həllinə kömək ola bilər. Buna görə də kollektiv üzvləri onlara müraciət edənlərə həssaslıqla yanaşırlar.

Direktor muxtar respublika rəhbərinin arxivə, burada çalışanlara göstərdiyi diqqət və qayğısından da minnətdarlıqla söhbət açdı. Belə ki, 2012-ci il sentyabrın 26-da Arxiv İdarəsinin binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib. Binada sənədlərin saxlanması üçün hərəkətli rəflər qoyulub, müasir havalandırma, soyutma və istilik sistemləri quraşdırılıb. Hərəkət mexanizminin quraşdırılması rəfləri paralel relslər üzərində asanlıqla hərəkət etdirməyə imkan verir. Bütün bu yaradılan şərait isə işçilərin səmərəli fəaliyyətinə kömək edir. O vurğuladı ki, kollektiv bundan sonra da öz işini tələb olunan səviyyədə quracaq, qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində fəallıq göstərəcək.

**Fatma BABAYEVA**

## *“Naxçıvan Dövlət Tarix Muzeyi və Mirbağır Mirheydərzadə”* mövzusunda tədbir keçirilib





*Naxçıvan Dövlət Tarix Muzeyində keçirilən tədbiri giriş sözü ilə muzeyin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami Rəhimov açaraq muzeyin təşəkkülü və inkişafı istiqamətində Mirbağır Mirheydərzadənin həyata keçirdiyi tədbirlər haqqında danışıb.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Mədəni irs və muzey işi üzrə baş məsləhətçisi Qumral Məmiyeva, Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyinin direktoru Aləmzər İbrahimova, Naxçıvan Dövlət Tarix Muzeyinin baş elmi işçisi Nərminə Allahverdiyeva çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış Mirbağır Mirheydər oğlu Mirheydərzadə mənalı həyatının 15 ilə yaxın dövrünü Naxçıvanda muzey quruculuğu işinə həsr edib.

1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti bərqərar olduqdan sonra Mirbağır Mirheydərzadənin fəaliyyəti, əsasən, Naxçıvanın tarixi, bu ərazidəki qədim abidələrin və yer adlarının öyrənilməsi, arxeoloji materialların, folklor nümunələrinin toplanması və tədqiqi ilə bağlı olub.

Qeyd edilib ki, 1923-cü ildə Bakıda Azərbaycanı Öyrənən Tədqiq və Tətəbbö Cəmiyyətinin, 1924-cü ilin oktyabrında Naxçıvanda Xalq Komissarları Sovetinin qərarı ilə Naxçıvan Tarix-Etnoqrafiya Muzeyi, 1925-ci ilin may ayında isə Azərbaycanı Öyrənən Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan təşkilatı yaradılıb. Təsis yığıncağında Mirbağır Mirheydərzadə cəmiyyətin elmi katibi vəzifəsinə seçilib və 1928-ci ilin ortalarınadək bu vəzifədə çalışıb. 1925-1928-ci illərdə keçirilən iclas protokollarının təhlilindən aydın olub ki, cəmiyyətin üzvləri, xüsusilə onun elmi katibi Mirbağır Mirheydərzadə Naxçıvanda muzey quruculuğu işində fəal iştirak edib.

Diqqətə çatdırılıb ki, faktlardan göründüyü kimi, ötən əsrin 20-ci illərinin ortalarından etibarən Naxçıvan tarixinin öyrənilməsində və bu tarixi özündə yaşatmağa başlayan Naxçıvan Tarix-Etnoqrafiya Muzeyinin (indiki Naxçıvan Dövlət Tarix Muzeyinin) təşəkkülündə və inkişafında Tədqiq və Tətəbbö Cəmiyyəti, xüsusilə onun elmi katibi olmuş M.Mirheydərzadə əvəzsiz rol oynayıb.

Tədbirdə maarifpərvər ziyalının nəvələri Mirbağır Mirheydərzadə haqqında xatirələrini bölüşüblər.

Sonra Naxçıvan Dövlət Tarix Muzeyinin əsasını qoyanlardan olan Mirbağır Mirheydərzadəyə həsr edilən sərgiyə baxış olub.

**Nail ƏSGƏROV**

## İstedadlı qadınların rəsm və əl işlərinin sərgi-satışları milli dəyərlərimizin yaşadılmasına xidmət edir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına əsasən komitə və aid təşkilatlar tərəfindən təşkil olunan sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış artıq ikinci ildir ki, keçirilir.*

Bu il sentyabrın 29-da Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında təşkil olunan sərgi-satışa evdar xanımlar, müxtəlif sahələrdə fəaliyyət göstərən – Naxçıvan Muxtar Respublikası Estetik Tərbiyə, Texniki Yaradıcılıq, Heydər Əliyev adına Uşaq-Gənclər Yaradıcılıq mərkəzlərinin, məktəbdənkənar müəssisələrin dərnək rəhbərləri və üzvlərinin, Naxçıvan Biznes Mərkəzinin emalatxanasında çalışan qadınların, eləcə də sağlamlıq imkanları məhdud və məhkum qadınların əl işləri çıxarılmışdır. Sərgi-satışda 269 istedadlı qadının 718 muncuqla, 34 kağızla, 628 toxuma, 29 tikmə, 279 dekorativ, 17 taxta üzərində və 29 üzərlik ilə iş, 37 yağlı boya, 51 tikmə, 30 toxuma, 37 dekorativ, 32 muncuqla işlənmiş tablo, 39 gips üzərində oyma, 28 xalça, 18 milli geyim olmaqla, ümumilikdə, 2006 rəsm və əl işi nümayiş etdirilmişdir. Əl işlərinə muxtar respublika sakinləri ilə yanaşı, regionumuzda olan turistlər də böyük maraq göstərmişlər. 10 gün davam edən sərgi-satışın minlərlə ziyarətçisi olmuş, 70 istedadlı qadının 3286 manat dəyərində 490 rəsm və əl işi satılaraq qadınlara ödənilmişdir.



Sərgi-satışda hər bir rayona məxsus adət-ənənələrin əl işlərində öz əksini tapması, məxsusi xalçaların, bəzək nümunələrinin, gündəlik məişətdə istifadə olunan əşyaların sərgilənməsi maraqla qarşılanmışdır.

Muxtar respublikanın rayonlarında da istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışlar təşkil edilir. Cari ildə rayonlarda keçirilən tədbirlərdə 362 istedadlı qadının 2953 rəsm və əl işi sərgilənmiş, bu sərgi-satışlarda və “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində fəaliyyət göstərən qadınların əl işləri mağazasında 220 istedadlı qadının 5919 manat dəyərində 903 rəsm və əl işi satılmışdır. Ümumilikdə, cari il ərzində 290 istedadlı qadının 9205 manat dəyərində 1393 rəsm və əl işi satılaraq qadınlara ödənilmişdir.

İstedadlı qadınlarımız Naxçıvan şəhərinin 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı olması ilə bağlı loqotipi əl işlərinə köçürmüş, Naxçıvanın tarixini, təbiətini, həyat tərzini, qədim tarixi abidələrini, bir sözlə, İslam mədəniyyətinə bağlılığını əks etdirən müxtəlif janrlarda əl işləri hazırlamışlar. Hazırda bu işlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*“Naxçıvan” Universitetinin kitabxanasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil edilmiş Nizami Gəncəvinin “Sirlər xəzinəsi” və “Nizaminin hikmət və nəsihətləri” kitablarının müzakirəsi keçirilib.*

## *“Sirlər xəzinəsi” və “Nizaminin hikmət və nəsihətləri”* kitablarının müzakirəsi olub



Tədbiri giriş sözü ilə açan “Naxçıvan” Universitetinin rektoru, professor İsmayıl Əliyev sərəncamın əhəmiyyətindən, bu istiqamətdə atılan addımların vacibliyindən danışıb. Rektor çıxışında siyahıda gənc nəslin dövlətçilik və vətənpərvərlik tərbiyəsinə, habelə şəxsiyyət kimi formalaşmasına daha çox təsir edə biləcək kitablara üstünlük verilməsi müstəqil dövlətçilik idealları üstündə köklənmiş kamil Azərbaycan vətəndaşlarının daha yetkin səviyyədə formalaşdırılmasına kömək etmək məqsədi daşıdığını vurğulayıb.

Tədbirdə çıxış edən kitabxananın direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Aypara Behbudova bu sərəncamın kitaba, kitabxanalara qayıdış üçün çağırış olduğunu, sərəncamdan sonra kitabxanalarda oxucuların sayının artdığını və siyahıda adı göstərilən hər bir kitabın müzakirəsinin təşkil olunmasının qarşıda duran əsas vəzifə kimi müəyyənləşdirildiyini qeyd edib.

Sonra Azərbaycan dili və ədəbiyyat kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru Nurlana Əliyeva “Sirlər xəzinəsi” və “Nizaminin hikmət və nəsihətləri” kitabları haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib, əsərin spesifik xüsusiyyətlərindən danışıb.

Tələbələrdən FatiməYusifova və Aydın Əliyev “Sirlər xəzinəsi” poemasından bir parçanı bədii qiraət ediblər. Tələbələri maraqlandıran suallar cavablandırılıb, sonda sərəncamda adları göstərilən kitablardan ibarət guşəyə baxış olub.

**Nubar SƏFƏRLİ**

Adət-ənənələrimiz

# Unudulan mərasimlərimiz – *Kövsəc*

***Xalqımızın genetik yaddaşında, tarixi mənbələrdə bu günə qədər qorunub saxlanan adət-ənənələr arasında müxtəlif mövsümlərlə bağlı mərasim və nəğmələr özünəməxsus yer tutur. Ulu əcdadlarımız uzun illərin müşahidəsi nəticəsində ili müəyyən dövrlərə bölüb, onlara müxtəlif adlar verər, həmin dövrdə görüləcək işləri planlaşdırardılar. Təkcə işlər planlaşdırılmaz, istirahət və əyləncə də unudulmazdı.***

İlin müəyyən dövrləri bayram kimi təntənəli surətdə qeyd edilərdi. Bu mərasimlər zamanı xalq yaradıcılığının məhsulu olan meydan tamaşaları, etnoqrafik cəhətdən maraqlı oyunlar, səhnələşdirilmiş tamaşalar, mahnı və rəqslər, müxtəlif müsabiqələr təşkil edilərdi. Xalq yaradıcılığının məhsulu olub, zəngin folklor nümunələri ilə müşayiət edilən bu tədbirlər xalqın çoxəsrlik mədəniyyəti ilə yanaşı, pedaqogikasının da zənginliyini göstərir. Belə ki, mərasimlərdə həm tamaşaçı, həm də iştirakçı olan uşaqlar bu bilgiləri emprik yolla mənimsəyərdilər.

Araşdırmalar göstərir ki, Azərbaycan etnoqrafiyasında bu mərasimlər, əsasən, payız-qış mövsümündə daha çox həyata keçirilərmiş. Görünür ki, əkin-biçin qayğısından azad olan ata-babalarımız bu bayramlarda həm istirahət edib əylənmiş, həm də xalq yaradıcılığını inkişaf etdirmişlər.

Qədim zamanlarda payız-qış dövründə fəsillərin başlanması, yarı olması müxtəlif formalı mərasimlərlə qeyd edilib. Mehrican (payızın girməsi), Kövsəc (payızın yarı olması), Çillə (qışın girməsi), Xıdır Nəbi (qışın yarı olması), Novruz (baharın girməsi) ardıcıllığı mövcuddur.

Etnoqraf Məmməd Dadaşzadə Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyətindən yazarkən Avesta təqvimində iki fəsildən, ilin "böyük yay" adlanan və yeddi aydan ibarət olan Xızırdan, beş aydan ibarət olan "Qasım" adlanan qışdan ibarət olduğunu qeyd edir. Əfsuslar olsun ki, etnoqrafik qaynaqlarda Xızırın (yay) və Qasımın (qış) nə zaman başlandığına rast gəlmirik.

Türk yazıçısı Rəşad Nuri Güntəkinin "Çalıquşu" əsərində belə bir qeyd vardır: "Bu gün, 23 aprel Xızır-İlyas günüdür (yayın birinci günü)". Bu köhnə təqvimlə olduğu üçün indiki təqvimlə may ayının 6-na uyğun gəlir.

Etnoqraf Asəf Orucov da "Xalq təqvimi" kitabında qeyd edir ki, Anadolu türklərində bu bayramı "Hıdır Əlləz" adı ilə may ayının 6-da, Balkanlardakı müsəlman-türk xalqları isə aprel ayının üçüncü ongünlüyündə qeyd edirlər. Belə olduqda Avesta təqviminə uyğun olaraq Qasım (qış) dekabr ayının 6-da (köhnə təqvimlə noyabrın 23-də) başlamalıdır.

Payızın başlanğıc dövründə ilk həyata keçirilən mərasimlərdən biri "məhsul bayramı"dır. Qədim dövrlərdən müxtəlif xalqlar arasında, eləcə də Azərbaycanda qeyd edilən bu bayram "mehrikan" (mehrican) adlanır. İkinci növbədə həyata keçirilən mərasim isə Kövsəcdir. Bu mərasimin keçirilməsi haqda çox az məlumat vardır. Ona görə də Naxçıvanda çöl tədqiqatları zamanı bu mərasimlə bağlı məlumat toplamaq mümkün olmamışdır.

Bu barədə məlumatlara yazılı mənbələrdə də çox az rast gəlinir. Folklorşünas Bəhlul Abdullayev "Kommunist" qəzetinin 1989-cu ildə dərc olunan "Novruz gəlir" sərlövhəli məqaləsində qışın qorxudulması ilə bağlı keçirilən mərasimlərdən birinin də Kövsəc olduğunu göstərib.

Etnoqraf Qəmərşah Cavadov isə "Əkinçilik mədəniyyətinin sorağı ilə" monoqrafiyasında həmin məqaləyə istinadən Kövsəcin noyabrda – qırov düşən dövrdə icra olunduğunu iddia edib. Zənnimizcə, "qırov düşən dövr" vaxt məfhumu qeyri-dəqiqdir. Çünki havanın temperaturu müxtəlif dövrlərdə fərqli ola bilər.

Kövsəc mərasiminin keçirilmə vaxtını müəyyənləşdirmək üçün bir məsələyə də diqqət yetirək. Rumi təqvimində (Günəş təqvimi) Qasım (qış) noyabr ayının 8-də, Xızır (yaz) isə may ayının 6-da başlayır. Məlumat üçün deyək ki, Rumi təqvimində yeni il mart ayının 14-dən hesablanır və hazırda 1433-cü ildir. Buradan aydın olur ki, Kövsəc 5-8 noyabrda (payızın yarı olması və qışın, Qasımın girməsi) keçirilmişdir.

Bəhlul Abdullayev adıçəkilən məqaləsində yazır ki, qışın qorxudulması ilə bağlı keçirilən bu mərasimin iştirakçıları istilik gətirən yeməklər – yağlı ət, daha çox istiotlu xörəklər yeyərmişlər. Özünü gülməli kökə salmış, cırcındır paltar geymiş birisi qatıra minib ortaya çıxar və əlində tükü yolunmuş qarğa saxlayarmış. Yan-yörəsindəkilər onun üstünə soyuq su səpərmişlər. O isə saymazyana "İstidi, istidi, bahar gəlir, yaz gəlir!", – deyə haray salarmış. Daxili məzmununa fikir versək, tam aydınlığı ilə görərik ki, qədim azərbaycanlıların "Kövsəc" adlandırdıqları bu mərasimdə, əslində, əhalinin qışdan qorxmaması, psixoloji cəhətdən qışa hazırlanması nəzərdə tutulmuşdur. Bəzi bölgələrdə qışı qorxutmaq, müxtəlif hərəkətlərlə ona qalib gəlmək üçün "həsir çırpma" ayini yerinə yetirilir. Fikrimizcə, bu da Kövsəc mərasimindən qalmadır. Məntiqlə də qışın yazda qorxudulmasına ehtiyac yoxdur. Dahi Nizami Gəncəvi yazırdı:

***Novruz ilə səddə bayramında***
***Ayinlər yenidən olurdu bərpa.***

Eyni ayinlər bir neçə bayramda təkrar olunduğuna görə xalqın yaddaşından silinən Kövsəc mərasimində icra olunan bəzi ayinlər digər bayramlarımızda yerinə yetirilməyə başlanmışdır.

**Zaleh NOVRUZOV**

## Qlobal şəbəkədə yeni kompüter virusu aşkarlanıb

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi idarə və təşkilatların, əhalinin diqqətinə çatdırır ki, 25 oktyabr 2017-ci il tarixdən etibarən dünya ölkələrinin informasiya sistemlərinə və şəbəkələrinə növbəti virus hücumu zərbə vurmağa başlayıb. 200-dən çox dövlət qurumunun və özəl təşkilatların informasiya sistemlərinə zərbə vuran "Bad rabbit" adlandırılan "ransomware" virusu muxtar respublikamızda da kompüter şəbəkələrini təhlükə qarşısında qoya bilər. Qeyd edək ki, virus "Win32/Diskcoder.D", "Trojan-Ransom.Win32.Gen.f", "Win32/Tibbar", "Troj/Ransom-ERK" adları altında sistemlərə nüfuz edir.

Rusiya, Türkiyə, Ukrayna, Almaniya kimi ölkələrdə sürətlə yayılan virus "Petya" virusunun bir başqa formasıdır. Hücumçu kompüter sistemlərini kilidləyir və açılması üçün qurbandan 0.05 bitcoin (təxminən, 285 dollar) tələb edir. Belə ki, virus bəzi rus xəbər media saytlarına daxil olan istifadəçilərə saxta "Adobe Flash Player"də yenilik barəsində pop-up reklam mesajı kimi təqdim olunaraq yayılıb. Bununla yanaşı, istifadəçilər bu və ya digər təhlükəli veb-saytlara daxil olduğu zaman zərərli fayllardan ibarət olan saytlara yönləndirilir.

Kompüter sistemlərini təhlükədən qorumağınız üçün Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi yerli istifadəçilər üçün aşağıdakıları tövsiyə edir:

*- ziyanvericinin şəbəkənizdə yayılmasının qarşısını almaq üçün WMI xidmətini (Windows Management Instrumentation Command-line) deaktiv etmək;*

*- istifadə etdiyiniz kompüter və informasiya sistemlərinizdəki "Windows" əməliyyat sistemlərində mövcud olan boşluqların aradan qaldırılması üçün dərhal təzələnmə "patch" proqramın yüklənməsi və quraşdırılması işlərini aparmaq;*

*- e-poçt vasitəsilə göndərilən naməlum fayllara, tanış olmayan hər hansı digər mənbəyə keçidə daxil olmamaq;*

*- vacib sənədlərin ehtiyat nüsxəsini yaratmaq;*

*- qeyri-rəsmi mənbələrdən tətbiqetmələr yükləyib quraşdırmamaq;*

*- aktiv və antivirus bazası aktual olan antivirusdan istifadə etdiyinizdən əmin olmaq;*

*- əgər hər hansı antivirus proqramı istifadə edilmirsə, "Microsoft Defender" antivirus proqramından istifadə etmək;*

*- antivirus proqramı vasitəsilə kompüterinizdə mövcud ola biləcək yoluxmaları yoxlamaq.*

İnternetdən istifadə zamanı təhlükəsizlik qaydalarına riayət etməyiniz, baş vermiş yoluxmalar barədə və ya əməli yardıma ehtiyac olduqda Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzinin *"209"* nömrəli qaynar xəttinə zəng etməyiniz və ya *rytn@nakhchivan.az* elektron ünvanına yazmağınız tövsiyə olunur.

Hörmətli kompüter istifadəçiləri, yuxarıda qeyd edilən profilaktik tədbirlərin həyata keçirilməsi sizin elektron məlumatlarınızın qorunmasını təmin edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi***

İdman

## Komandamız Azərbaycan birinciliyinin qalibi olub

***"Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə Azərbaycan çempionatının final mərhələsi keçirilib.***




Xaçmaz rayonunda keçirilən çempionatda muxtar respublikanı Naxçıvan Muxtar Respublikasının zona birinciliyinin qalibi olan Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin komandası təmsil edib. Ümumilikdə, ölkənin 10 rayon və 6 şəhər komandasının mübarizə apardığı birincilik 5 gün davam edib.

Yarışda uğurla çıxış edən komandamız Azərbaycan çempionu adını qazanıb. Eyni zamanda 5 növ üzrə yarışların üçündə idmançılarımız daha böyük uğura imza atıblar. Belə ki, qumbara atmada (fərdi, 46 metr) Ayxan Seyidov, güllə atmada (fərdi, 42 bal) Əlirza Mayıllı və 2000 metr məsafəyə qaçışda Sərdar Tağıyev (5 dəqiqə 53 saniyə) xüsusi olaraq "ən yaxşılar" üçün verilən diplom və kuboka layiq görülüblər.

Sonda 1128 xal toplayan komandamız qalib adını qazanıb və təşkilatçılar tərəfindən diplom və kubokla təltif olunub.

## Çempionatın lideri dəyişməz olaraq qalır



***Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri ilə razılaşdırılmış təqvim planına uyğun olaraq futbol üzrə XVI muxtar respublika çempionatında növbəti turun oyunları keçirilib.***

Turnir cədvəlinin şəriksiz lideri "Araz-Naxçıvan" Naxçıvan Dövlət Universitetinin komandasının qonağı olub. Görüşə sürətli başlayan "qırmızı-ağlar" ilk hissədə vurduğu 4 qolla 3 xalı aktivinə yazıb. Son 2 turu itkisiz başa vuran digər komanda isə "Əlincə"dir. Culfa təmsilçisi "Kəngərli" və "Batabat" komandalarını məğlub edərək maksimum nəticə əldə edib.

Turnir cədvəlində yerini itirən digər komanda "Babək"dir. Belə ki, universitet komandasına məğlub olan babəklilər növbəti turda Şərurun "Arpaçay" komandasını məğlub etməyi bacarıblar. Mövsüm ərzində yalnız bir qələbə qazanan "Arpaçay" hazırda son pillədə qərarlaşıb. Onlar kimi "Batabat" komandası da mövsümə uğursuz başlayıb.

Cari mövsümün bombardirlərinə gəlincə, Naxçıvan Dövlət Universitetinin forvardı Samir Kərimov 7 qolla bu cədvələ başçılıq edir. "Araz-Naxçıvan"ın iki hücumçusu – Turqay İbrahimov və İbrahim Əliyevin isə aktivində 6 qol var.

***Naxçıvan Muxtar Respublika çempionatı***
***5 və 6-cı turun oyunları***

Naxçıvan Dövlət Universiteti - "Babək" (Babək) 1:0

"Əlincə" (Culfa) - "Kəngərli" (Kəngərli) 2:0

"Sədərək" (Sədərək) - "Dübəndi" (Ordubad) 3:0

"Batabat" (Şahbuz) - "Arpaçay" (Şərur) 3:0

"Babək" - "Arpaçay" 3:0

Naxçıvan Dövlət Universiteti - "Araz-Naxçıvan" 0:4

"Əlincə" - "Batabat" 4:1

"Kəngərli" - "Dübəndi" 3:1

| S | Komandalar | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|
| 1. | Araz-Naxçıvan | 5 | 5 | 0 | 0 | 24-2 | 15 |
| 2. | Əlincə | 5 | 3 | 2 | 0 | 12-15 | 11 |
| 3. | NDU | 5 | 3 | 1 | 1 | 13-6 | 10 |
| 4. | Babək | 6 | 3 | 1 | 2 | 10-9 | 10 |
| 5. | Sədərək | 5 | 2 | 0 | 3 | 10-13 | 6 |
| 6. | Kəngərli | 6 | 2 | 0 | 4 | 14-19 | 6 |
| 7. | Dübəndi | 5 | 2 | 0 | 3 | 7-12 | 6 |
| 8. | Batabat | 5 | 1 | 0 | 4 | 9-22 | 3 |
| 9. | Arpaçay | 5 | 1 | 0 | 4 | 5-16 | 3 |

***Qeyd:*** "S" – sıra, "O" – oyun, "Q" – qələbə, "H" – heç-heçə, "M" – məğlubiyyət, "T/F" – top fərqi, "X" – xal.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası üzrə 30 oktyabr 2017-ci il tarixə taxıl səpininin gedişinə dair operativ məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 2334,0 | 2285,0 | 49,0 |
| 2. | Babək rayonu | 4497,0 | 2930,0 | 1567,0 |
| 3. | Ordubad rayonu | 658,0 | 427,0 | 231,0 |
| 4. | Culfa rayonu | 2350,0 | 2096,0 | 254,0 |
| 5. | Kəngərli rayonu | 2316,0 | 1295,0 | 1021,0 |
| 6. | Şahbuz rayonu | 675,0 | 665,0 | 10,0 |
| 7. | Sədərək rayonu | 722,0 | 722,0 | - |
| 8. | Naxçıvan şəhəri | 432,0 | 405,0 | 27,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **13984,0** | **10825,0** | **3159,0** |

### *İtmişdir*

"Orhan Ceyhun" Məhdud Məsuliyyətli Cəmiyyətinə (VÖEN-0200686831) məxsus sənədlər itdiyindən etibarsız sayılır.

### *Bildiriş*

"Orhan Ceyhun" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN-0200686831) fəaliyyətini dayandırdığından ləğv edilir.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 874